# XÜLASƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

- Dünyada geosiyasi və geoiqtisadi gərginliklərin davam etməsi, dünya iqtisadiyyatında qeyri-müəyyənliklərin və risklərin artması şəraitində 2023-cü ildə Azərbaycan iqtisadiyyatında iqtisadi artım prosesləri davam etmişdir. 2023-cü ildə ÜDM-də 1,1%, qeyri neft-qaz sektorunda isə 3,7% artım müşahidə olunmuşdur. Qeyri neft-qaz sektorunun artım tempinə tikinti, qeyri neft-qaz sənayesi, turizm və ictimai iaşə sahələri yüksək artırıcı təsir göstərmişdir.
- 2023-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən **əsas kapitala 20,3 milyard manat və ya 2022-ci ilə nisbətən 9,8% çox vəsait yönəldilmişdir.** Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,9%, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 9,3% artmışdır.
- Hesabat dövründə **əsas kapitala yönəldilmiş investisiyaların** 80,9%-i və ya 16,4 milyard manatı daxili, 19,1%-i və ya 3,9 milyard manatı isə xarici mənbələr hesabına formalaşmışdır. Əsas kapitala investisiyaların 30,9%-i və ya 6,3 milyard manatı neft-qaz sektoruna, 69,1%-i və ya 14,0 milyard manatı isə qeyri neft-qaz sektoruna yönəldilmişdir.

# XÜLASƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

- Əsas kapitala investisiyaların **maliyyələşmə mənbələri** üzrə müəssisə və təşkilatların öz vəsaiti 13,1%, bank kreditləri 19,5%, büdcə vəsaitləri 6,5%, sair vəsaitlər 25,5% artmışdır.

- 2023-cü ilin dekabr ayında **illik inflyasiya** 2022-ci ilin dekabr ayındakı müvafiq inflyasiya göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq **2,1%** olmuşdur. 2023-cü ildə **orta illik inflyasiya** isə 2022-ci ilin müvafiq inflyasiya göstəricisinə nəzərən 5,1 faiz bəndi azalaraq **8,8%** olmuşdur.

- 2023-cü ildə **istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 72,5 milyard** manat olmaqla 2022-ci ilə nəzərən müqayisəli qiymətlərlə **5,5% artmışdır**. Hesabat dövründə **pərakəndə ticarət dövriyyəsinin** həcmi **59,0 milyard manat (3,7% artım), ictimai iaşə dövriyyəsi 2,0 milyard manat (15,2% artım), əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 11,4 milyard manat (14,0% artım)** olmuşdur.

- 2023-cü ildə ölkə **əhalisinin nominal gəlirləri** 12,8% artaraq 78,1 milyard manat və ya hər nəfərə orta hesabla 7686,9 manat təşkil etmişdir.

# XÜLASƏ

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

- 2023-cü ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin **orta aylıq nominal əməkhaqqı** 11,2% artaraq 923,1 manat təşkil etmişdir.
- Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2023-cü ildə **xarici ticarət dövriyyəsinin** həcmi 51,2 milyard ABŞ dolları, o cümlədən **ixracın** həcmi 33,9 milyard ABŞ dolları və **idxalın** həcmi isə 17,3 milyard ABŞ dolları olmuş və nəticədə 16,6 milyard ABŞ dolları həcmində **müsbət ticarət saldosu** yaranmışdır. 2023-cü ildə 2022-ci ilə nəzərən **qeyri neft-qaz ixracı** 9,8% artaraq 3,3 milyard ABŞ dolları olmuşdur.
- 2023-cü ildə 2022-ci ilə nəzərən **dövlət büdcəsinin gəlirləri** 16,0% artaraq 35,6 milyard manat, **dövlət büdcəsinin xərcləri** isə 13,7% artaraq 36,5 milyard manat olmuşdur.
- 2023-cü ilin sonu tarixinə ölkənin **strateji valyuta ehtiyatları** 68,5 milyard ABŞ dolları olmuşdur ki, bu da 2023-cü il üzrə ÜDM-nin 95%-inə yaxındır. Azərbaycan Respublikası Mərkəzi Bankının **rəsmi valyuta ehtiyatları** isə 2023-cü ilin sonu tarixinə 2022-ci ilin müvafiq tarixi ilə müqayisədə 29,1% artaraq 11,6 milyard ABŞ dolları olmuşdur.

# ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR (2023-cü il)

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## İQTİSADİ ARTIM

**ÜDM**
(123.0 milyard AZN)
+1.1%

**QEYRİ NEFT-QAZ ÜDM**
(77.7 milyard AZN)
+3.7%

**NEFT-QAZ ÜDM**
(45.3 milyard AZN)
-1.7%

## DİGƏR

İllik inflyasiya: 2,1%
Orta illik inflyasiya: 8,8%

Orta aylıq əməkhaqqı (2023 yanvar-noyabr): 923.1 AZN

1 ABŞ dolları = 1.7000 AZN

## XARİCİ TİCARƏT

TİCARƏT BALANSI
+16.6 milyard ABŞ $

## MALİYYƏ

**ƏSAS KAPİTALA YÖNƏLDİLMİŞ VƏSAİTLƏR**
(20.3 milyard AZN)
+9.8%

**MƏRKƏZİ BANKIN VALYUTA EHTİYATLARI**
(11.6 milyard ABŞ $)
+29.1%

## DÖVLƏT BÜDCƏSİ

**DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ**
(35.6 milyard AZN)
+16.0%

**DÖVLƏT BÜDCƏSİNİN XƏRCLƏRİ**
(36.5 milyard AZN)
+13.7%

# Ümumi Daxili Məhsulun real artım templərinin dinamikası, faizlə



**Hesabat dövründə qeyri neft-qaz sektorunda müşahidə olunan artım ÜDM-nin də müsbət dinamikada olmasına səbəb olmuşdur.**




**Mənbə: Dövlət Statistika Komitəsi**

## Sahələr üzrə yaradılmış əlavə dəyər göstəriciləri (2023-cü il)

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**Nəqliyyat və anbar təsərrüfatı istisna olmaqla qeyri neft-qaz ÜDM-nin bütün sahələrində iqtisadi artım müşahidə olunmuşdur.**



**Sənaye**

**49759,2 mln. manat**

**o cümlədən,**

**qeyri neft-qaz sənayesi**

**6286,7 mln. manat**

**7,9% artım**



**Kənd təsərrüfatı**

**6815,6 mln. manat**

**3,0% artım**



**Tikinti**

**7600,4 mln. manat**

**13,3% artım**



**Ticarət**

**12332,8 mln. manat**

**3,5% artım**



**Turizm və ictimai iaşə**

**2684,5 mln. manat**

**21,8% artım**



**Nəqliyyat və anbar təsərrüfatı**

**7637,0 mln. manat**

**9,9% azalma**




**İnformasiya və rabitə**

**2151,4 mln. manat**

**16,3% artım**

# Əsas kapitala cəmi investisiyaların real artım tempinin dinamikası, faizlə

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**2023-cü ildə həm neft-qaz, həm də qeyri neft-qaz sektorlarına yönəldilən investisiyalarda müşahidə olunan artım nəticəsində əsas kapitala investisiyalarda 9,8% artım qeydə alınmışdır.**




**Mənbə: Dövlət Statistika Komitəsi**

# Əsas kapitala yönəldilmiş investisiyaların strukturu

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

**Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,9%, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 9,3% artmışdır.**







**Mənbə: Dövlət Statistika Komitəsi**

# İnflyasiya

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

2023-cü ilin dekabr ayında **illik inflyasiya** 2022-ci ilin dekabr ayındakı müvafiq inflyasiya göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1% olmuşdur. 2023-cü ildə **orta illik inflyasiya** 2022-ci il üzrə müvafiq inflyasiya göstəricisinə nəzərən 5,1 faiz bəndi azalaraq 8,8% olmuşdur.

**İnflyasiya göstəricilərinin dinamikası, faizlə**




**2023-cü ilin yanvar-dekabr ayları üzrə inflyasiya göstəriciləri, faizlə**




**Mənbə: Dövlət Statistika Komitəsi**

# İstehlak bazarı və real artım tempi

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## 2023-cü il

**İstehlak bazarı**

- **72450,8 milyon manat (5,5% artım)**

**Pərakəndə ticarət**

- **58997,7 milyon manat (3,7% artım)**

**İctimai iaşə**

- **2041,5 milyon manat (15,2% artım)**

**Ödənişli xidmətlər**

- **11411,6 milyon manat (14,0% artım)**

**Pərakəndə ticarət dövriyyəsi, mlrd. manatla**




**Mənbə: Dövlət Statistika Komitəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

## Əhalinin gəlirlərinin nominal artım tempi inflyasiyanın səviyyəsini üstələmişdir.

Əhalinin nominal gəlirləri (2023-cü il)

- **78,1 milyard manat (12,8% nominal artım)**

Hər nəfərə düşən gəlirlər (2023-cü il)

- **7686,9 manat (12,2% nominal artım)**

Orta aylıq əməkhaqqı (2023-cü il yanvar-noyabr)

- **923,1 manat (11,2% nominal artım)**

İqtisadi fəal əhalinin sayı (01.01.2024-cü il tarixinə)

- **5249,7 min nəfər**

Məşğul əhali (01.01.2024-cü il tarixinə)

- **4963,3 min nəfər**

**Orta aylıq əməkhaqqının dinamikası, manatla**




**Mənbə: Dövlət Statistika Komitəsi**